Rəqsanə Qalib qızı Süleyman [65]

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN ƏSƏRLƏRİ FƏLSƏFİ-TƏNQİDİ VƏ YARADICI YAZININ SİNTEZİNDƏ

Azərbaycanda maarifçi realist ədəbiyyat ilk mərhələlərdə hələ öz böyük romanını, öz "böyük nəsr" janrlarını yaratmır. XIX əsrin ortalarının realist-maarifçi ədəbi fikri M.F.Axundzadənin altı komediyası, povesti, tənqidi və fəlsəfi-publisist əsərləri ilə təmsil olunur. Böyük mütəfəkkir "Təmsilat"-da ifadə və təbliğ etdiyi maarifçi idealları "Aldanmış Kəvakib"də və "Kəmalüddövlə məktubları"nda davam və inkişaf etdirir. Axundzadə maarifçiliyi öz ideya-məfkurə zirvələrinə bu əsərlərlə yüksəlir. Hər yerdə olduğu kimi, Azərbaycanda da maarifçi-realist və maarifçi-publisist nəsr maarifçilik hərəkatının inkişafında xüsusilə böyük rol oynayır.

Tənqidi realizmin bədii yaradıcılıq metodu kimi prinsiplərindən bəhs edəndə M.F.Axundzadə tənqid termininindən bir ədəbiyyat nəzəriyyəsi kimi danışır. Burada söhbət ancaq bir məsələdən, yeni realist ədəbiyyatın tənqidi istiqaməti məsələsindən gedir. Ədib göstərir ki, müasir ədəbiyyat moizə, nəsihət yolu ilə gedə bilməz. O, hazırki cəmiyyətin nöqsanlarını, eybəcərliklərini tənqidə tutmalı, bu yolda onu islah etməyə çalışmalıdır.

M.F.Axundzadə *tənqid – kritika* terminini bir də ədəbi tənqid mənasında işlətmişdir. Bu, onun ədəbi baxışlarının tamam başqa bir sahəsidir. Axundzadə əmin idi ki, bədii ədəbiyyatının inkişafına istiqamət vermək, ona düzgün yol göstərmək, oxucu səviyyəsini müasir tələblər səviyyəsinə qaldırmaq üçün ədəbi tənqiddən istifadə etmək lazımdır. Avropada geniş tətbiq olunan bu janr Şərqdə də dəbə düşməlidir. Axundzadə müasirlərinə ədəbi tənqid nümunəsi göstərmək üçün İran şairi *Siruşun*, dramaturq *Mirzağa Təbrizinin, Rzaquluxan Hidayətin* əsərlərinə tənqid yazmış [3], onları bir çox müasirlərinə göndərmiş, ədəbi tənqidin yazılış qanun-qaydalarını onlara öyrətməyə çalışmışdır.

Görkəmli ədəbiyyatşünas alim Kamal Talıbzadə Azərbaycan tənqidində ədibin bədii və icyimai-siyasi yaradıcılığına eyni astanada baxaraq qeyd edir: "İctimai-siyasi xadim kimi də Axundzadə eyni ümumi məqsədə xidmət edirdi. Bədii yaradıcılığı, ədəbi-tənqidi fəaliyyəti onun çoxcəhətli ictimai-siyasi faliyyətinin bir sahəsi idi və bunların biri-digərini tamamlayırdı. Feodalizm cəmiyyətinin çürümədkə olan qanun-qaydalarını, dini və fanatizmi tənqid, hüquq, əxlaq, azadlıq və demokratik dövlət quruluşu kimi onlarla məsələ M.F.Axundzadənin elmi va publisistik əsərlərinin əsas mövzusunu təşkil edirdi. Eyni məsələlərə o, bədii və tənqidi əsərlərində də geniş yer verirdi. Böyük mütəfəkkir ədəbiyyatın, tənqidin vəzifələrini xalqın qarşısında duran mühüm ictimai-siyasi vəzifələrdən ayırmırdı." [4, 47]

M.F.Axundzadə öz ictimai-siyasi görüşlərində birdən-birə belə bir nəticəyə gəlməmişdi. Onun bu görüşləri müəyyən inkişaf yolu keçmişdir. Məsələn, təxminən 50-ci illərdə o, bu fikirdə idi ki, cəmiyyətdə müəyyən mədəni islahatlar aparmaq yolu ilə, maarifçi şah vasitəsilə azad bir cəmiyyət qurmaq mümkündür. Bunu qismən "Aldanmış kəvakib" povestində də görmək mümkündür. Lakin bunu da qeyd etmək lazimdir ki, realist sənətkar kimi o, doğru hərəkət etmişdi. Ədib maraqlı düşünülmüş bir üsuldan istifadə edərək qəhrəmanını hakimiyyət başına keçirir və onun vasitəsilə məqsədinə nail olur.

Axundzadə əhvalatı tarixidən götürmüş olsa da, onu müasir həyatla bağlamış, müasir Şərq despotizmini tənqid etmişdir. Onun tarixə müraciəti bir bəhanədir.

Görkəmli nasir, ədəbiyyat tarixçisi, yazıçı Elçin ədəbiyyatımızın həm də ilk irihəcimli nəsr nümunəsi olan "Aldanmış kəvakib"i siyasi nəsr nümunəsi hesab edərək deyir: "Siyasi nəsrin klassik nümunəsi olan "Aldanmış kəvakib" Axundzadə qələminin qüdrəti ilə sübut etdi ki, zalım zülmdən əl çəkməyəcək və əslində Mirzə Fətəlinin bütün yaradıcılığı "məsdər olan zülmü aradan qaldırmaq üçün" ikinci yolu təsdiq və təbliğ edir: məzlum zülmə dözməlidir [7, 8].

İranda hökm sürən şiddətli istibdad münəccimləri yaltaqlığa öyrətmişdi. M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nda bu xüsusda yazır: "Bundan başqa istibdad səltənətinin təsirindən dövlət münəccimləri elə bir dərəcə yaltaq və alçaq təbiətli olmuşlar ki, illik təqvimin hər səhifəsinin başında yazırlar: "Bu səfər ayın da, ulduzların vəziyyəti padşahın mübarək məzacının (ona ruhumuz fəda olsun) səlamətliyinə dəlalət edir və bu rəbiüləvvəl ayında ulduzların vəziyyəti, Cəmşid rütbəli padşahın böyüklüyünün artmasına şadlığının çoxluğuna, onun rütbəsinin artıqlığına (ruhumuz ona qurban olsun) dəlalət edir".

Qeyd etdiklərimizdən göründüyü kimi, M.F.Axundzadə geniş mütəliəsi, dünya fəlsəfi fikrinin inkişafı ilə yaxından tanış olan bir mütəfəkkir olmağı onun dünyagörüşünün inkişafında Azəarbaycan və Yaxın Şərq mədəniyyəti, eləcə də, mütərəqqi rus və Avropa mədəniyyətinin mühüm rolu olmuşdur. Şəbüstəri, Bəhmənyar, İbn Sina, Qəzali, Rumi kimi Şərq alimləri, Lomonosov, Petrarka, Spinoza, Volter, Stüart Mill, Sismondi kimi rus və Avropa alimləri onun müraciət etdiyi, təqdir və tənqid etdiyi filosofları idi.

[65] Xəzər Universitetinin magistrantı. E-mail: raxanasuleyman@gmail.com



M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nda irəli sürdüyü fikirləri daha da inkişaf etdirir, öz müxatəbi Təbriz nalbül-vüzərası sərtib Mirzə Yusif xanın E görüşlərindəki liberalizmi kəskin tənqidə tutur. O, dinə, şəriətə toxunmadan Şərqdə Fransa konstitusiyası kimi bir qanun tətbiq etmək fikrinə düşən "Yek kəlmə" müəllifini başa salır ki, "şəriət hökmlərinin köməyi ilə Fransa konstitsionunu Şərqdə həyata keçirmək,... yəni zülmü aradan qaldırmaq" qətiyyən mümkün deyildir. Yeganə yol budur ki, "millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: Səltənət və hökumət büsatından əl çək!" [3].

M.F.Axundzadənin dövlət quruluşu haqqında fikirləri "Yek kəlmə" haqqında" [3, 144-148] məktubunda (tənqidi məqaləsində) aydın şərh olunmuşdur. Müəllifin çox dərin və dövrün tələbi ruhunda yazılmış bu əsərində Şərqdə dövlət quruluşu yaratmaq yollarından, şəraitlə insan azadlığı arasındakı ziddiyyətdən, hər cür islahatçılıqla mübarizə aparıb inqilabi yol ilə hərəkət etmək zərurətindən və s. bəhs olunur. Kamal Talıbzadə qeyd edir: "Axundzadə göstərir ki, despotu aradan qaldırmaq üçün heç bir nəsihət kömək etməz. Çünki "nəsihət zalımın təbiətinə heç cür təsir etmir" [4, 51]. Eləcə də şəriət qanunları ilə yanaşı heç bir demokratik dövlət quruluşu yaratmaq, demokratik quruluşun tələb etdiyi "şəxsi azadlıqları icra etmək" mümkün deyildir [3, 144-148]. Çünki şəriət ehkamı ilə azadlıq şəkilləri daban-dabana ziddir.

"Yek kəlmə" məqaləsinə diqqət çəkən bu dövrün daha bir tədqiqatçı alimi, görkəmli ədəbi tənqidçi Yaşar Qarayev Axundzadədan danışarkən onun Azərbaycan ədəbiyyatına gətirdiyi yeni-yeni töhfələri qeyd edir və onu rus və Avropa maarifçilərindən ayırmır: "M.F.Axundzadənin "Yek kəlmə" əsərində və digər məktublarında təbliğ edilən inqilabi fikirləri, onun konstitusiyalı respublika quruluşuna tərəfdar çıxmasını Axundzadə maarifçiliyinin ümumi ruhundan və kontekstindən ayırmaq, hətta ona qarşı qoymaq, bütünlükdə bu maarifçiliyin özünü ta 70-ci illərə qədər hər cür inqilabi keyfiyyətlərdən məhrum məfkurə hadisəsi kimi təsəvvür etməyə gətirib çıxarardı. Böyük rus maarifçisi Radişşev də "Peterburqdan Moskvaya səyahət"də maarifçi monarxı rədd etmirdimi və kəndli inqilabı yolu ilə demokratik respublikaya ümid bəsləmirdimi? Fransada isə "maarifçi klassisizm" sözündən mütləqiyyəti tərənnüm edən klassisizm (Kornel, Rassin) və antimonarxist klassisizmi (Valter) bir-birindən fərqləndirmək üçün istifadə edirlər [6, 65]. Beləliklə, Axundzadə çürümüş, laxlamış üsuli-idarənin məhv edilməsi zərurətini əsaslandırırdı.

**Nəticə.** M.F.Axundzadənin məqsədi özünə də, dostlarına da, düşmənlərinə də tamam aydın idi: "Mənim məqsədim İslam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdimək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün və islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir" [3, 144-148]. Onun İran konsulu Əli Xana məktublarında söylədiyi bu məramı ilə fəaliyyəti və yaradıcılığı arasında heç bir təzad yox idi, əksinə, bütün böyük sənətkarlar kimi, onun da imkanları iddiasından artıq və əhatəli idi. Onun ölməz komediyaları da, nəsri də, poeziyası da, yeni əlifba uğrundakı mübarizəsi də, publisistikası və tənqidi də bu məqsədə xidmət edirdi.

M.F.Axundzadə öz xalqının qadirliyinə inanırdı. M.F.Axundzadə, öz əməllərinin həqiqiliyinə inanırdı. Bütün böyük sənətkarlar kimi, onun da yaradıcı həyatı kədərli hədisələrlə, bədii-fəlsəfi təxəyyülü sarsıda biləcək, qələmi sındıra biləcək hadisələrlə təəssüf ki, zəngin idi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Axundzadə M.F. Aldanmış kəvakib//Azərbaycan nəsri antologiyası: 5 cilddə / Bakı, 2006.- c. 1. - s. 74-98.
2. Axundzadə M.F. Əsərləri 3 cilddə: [Kəmalüddövlə məktubları; Fəlsəfi, ədəbi-tənqidi və tarixi məqalələr. Tənqid risaləsi] / Bakı: Şərq-Qərb, 2005. - c. 2. - 374 s.
3. Talıbzadə, K. Azərbaycan ədəbi tənqidinin tarixi: 1800-1920-ci illər / Bakı: Maarif, 1984. - 337 s.
4. Talıbzadə, K. Sənətkarın şəxsiyyəti - Bakı: Yazıçı, 1978. - 378 s.
5. Qarayev, Y. Azərbaycan realizminin mərhələləri / Bakı: Elm, 1980. - 257 s.
6. Fikrin karvanı: Görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları - Bakı: Yazıçı, 1984. - 348 s.

**Açar sözlər:** tənqid, müqayisəli tənqid, M.F.Axundzadə, tənqid və nəsr, maarifçi-realizm
**Keywords:** criticism, comparative criticism, M.F. Akhundov, criticism and prose, enlightened realism.
**Ключевые слова:** критика, сравнительная критика, М.Ф. Ахундов, критика и проза, просветительский реализм.

**Xülasə**

XIX əsr elmi-estetik fikrimizdə Mirzə Fətəli Axundzadə əsərlərində tənqiddən çox və tez-tez bəhs etmişdir. "Tənqid" terminini o, bir neçə müxtəlif mənada, həm geniş, həm də konkret mənalarda işlətmişdir. Axundzadə bir mütəfəkkirin, alimin, tarixçinin, vətəndaşın həyata, cəmiyyətə, hadisələrə tənqidi münasibətindən danışanda tənqid termininin geniş mənasını nəzərə alır. Burada o, tənqidin ümumi mənasını götürür, onun ictimai inkişaf vasitəsi olduğunu göstərir, cəmiyyətin tərəqqisindəki faydalarından danışır. Məhz bu məziyyətlərinə görə M.F.Axundzadəun ictimai-siyasi görüşləri dövrünün qabaqcıl, inqilabi ideyaları ilə bağlı idi və Azərbaycan xalqının azadlıq mübarizəsi ilə onun görüşləri nəinki əlaqədar idi, hətta bu hərəkatın inkişafına müəyyən kömək də göstərirdi. Bu məqamda, Axundzadə yaradıcı bədii mütəfəkkirdən çox, bir sosioloq, tarixçi və filosof kimi çıxış edir.

**The Works of Mirza Fatali Akhundov:**
**A Synthesis of Philosophical-Critical and Creative Writing**
**Summary**

In the 19th century scientific and aesthetic thought, Mirza Fətəli Akhundov frequently and extensively discussed criticism in his works. He used the term "criticism" in several different ways, both in broad and specific senses. When Akhundov talked about a thinker, a scholar, a historian, and a citizen's critical attitude towards life, society, and events, he referred to the broader meaning of the term "criticism." Here, he adopts the general sense of criticism, illustrating its role as a tool for social development and highlighting its benefits for societal progress. It is precisely because of these qualities that M.F. Akhundov's socio-political views were aligned with the progressive, revolutionary ideas of his time and were not only related to the struggle for the freedom of the Azerbaijani people but also contributed to the development of this movement. At this point, Akhundov presents himself less as a creative literary thinker and more as a sociologist, historian, and philosopher.

**Произведения Мирзы Фатали Ахундова:**
**синтез философско-критического и творческого письма**
**Резюме**

В научно-эстетической мысли XIX века Мирза Фатали Ахундов часто и много раз обсуждал критику в своих произведениях. Термин «критика» он использовал в нескольких различных значениях, как в широком, так и в конкретном смысле. Когда Ахундов говорил о критическом отношении мыслителя, ученого, историка и гражданина к жизни, обществу и событиям, он имел в виду более широкое значение термина «критика». Здесь он рассматривает критику как общественное явление, подчеркивает ее значение как средства общественного развития и говорит о ее пользе для прогресса общества. Именно благодаря этим качествам социально-политические взгляды М.Ф. Ахундова были связаны с прогрессивными, революционными идеями своего времени и не только были связаны с борьбой азербайджанского народа за свободу, но и оказывали содействие развитию этого движения. В этом контексте Ахундов выступает не только как творческий художественный мыслитель, но и как социолог, историк и философ.

**Rəyçi: S.Abbasova**